

*Zeynal VƏFA*

## ANA DİLİM

Daim şöhrət olub ulu tarıxə,
Günümüz, ayımız, ilimiz bizim.
Anamız Həvvanın bətnindən qopan,
İlk insan səsidir dilimiz bizim.
Qiyməti bilinməz bir incidir o,
Yarışa girməsin dünya dilləri,
Onsuz da bilirəm, birincidir o.
Ucalır içimdən qürurlu bir səs:
Fars dilin hökmdar taxtından yıxıb,
Orda Türk dilimi əyləşdirən kəs,
Mahmud Qəznəvi yox, Sultan Murad yox,
Dahi Füzulimiz oldu, əzizim.
Qələmi qələbə çaldı dilimdə,
"Leyli Məcnun"iylə yer kürəsini,
O heyrət toruna saldı dilimdə.
Tanrı gücündədir dilimin gücü,
Dəli zəlzələdir zilimin gücü.
Bununçün "Türkmənçay" mənim içimdən
Ulu cənubumu qoparsa belə,
Qədim şimalımı qoparsa belə,
Dilimi dilçəkdən qoparammadı.
Hətta dar ayaqda qoparılsa da,
Mənsiz bir dünyaya aparılsa da,
Dilçək ki, qalacaq...o, dilə candır.
Çünki dilçək özü Azərbaycandır.
Dilsiz vahid ürək söküm-sökümdür,
Dil milli əxlaqım, milli kökümdür,
Xalqım bu kök üstə pərvəriş tapıb.
Qışım da bahardı, yazdı bu dildə,
Əcdadım holavar nəğmələrini,
Torpaq varaqlara yazdı bu dildə.
Dahi Üzeyrim "Koroğlu cəngi"n,
Dünyanın qəlbinə qazdı bu dildə.
Mən 60 milyonluq dil sahibiyəm,
70 məmləkətdən pərvaz eyləyib,
"Mən varam" hayqıran zil sahibiyəm.
Ona qurban verrəm özümü belə,
Mən bütün dillərin lüğət fonduna,
Dəyişməm adi bir sözümü belə.
Şəhriyar yad dilin əsarətində,
Susmadı...qeyrətdə öndərdi bizə.
O "Heydər babaya salam" sovqatın,
Doğma dilimizdə göndərdi bizə.
Bu gün içimdəki yara bağımın,
Mənim mənsiz qalmış Qarabağımın,
Mənim Təbrizimin, Zəngəzurumun,
Ərzi silkələyən zilidir bu dil.
Bu gün beş qitədə pərvaz eyləyən,
Ana himnimizin dilidir bu dil.
Yurdumun hər çölü-biyabanında,
Müqəddəs Şəhidlər Xiyabanında
Dolaşan ruhların dilidir bu dil.

Bir insan səsinə möhtac saraydan,
Qoynu səs-küy dolu kaha yaxşıdır.
Öz ana dilini danan kimsələr,
Lal olsa, kar olsa daha yaxşıdır.
Min il yaşasam da ondan doymaram,
Anamın dilidir bu dil...qoymaram,
Ona yad dillərdən peyvənd vurula.
Lalədir, nərgizdir, qızıl güldür o,
Görün bir necə də ətir qoxuyur.
Dinləyin bülbülün şaqraq səsini,
O mənim dilimdə nəğmə oxuyur.
Alqış dilimdəki ulu qeyrətə,
Mənim "Şur dəsgahı"m, "Zabul segah"ım,
Bu dildə dünyanı saldı heyrətə.
Doğuldum...bu dildə oxundu laylam,
Körpəm də bu dildə bəslənəcəkdir.
Şadam, öləndə də mənim ruhuma
Bu dildə dualar səslənəcəkdir.
Dumanlı olsa da bu gün qarşımız,
Yenə də bu dildə ucalacaqdır,
Sabah Qarabağdan zəfər marşımız.

ədalət.2017.1 avqust.S.4.